Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Regional yol infrastrukturlarının inkişafında müstəsna əhəmiyyətli maliyyə mənbəyi...

**Azərbaycan Cənubi Qafqaz regionunun ən güclü dövlətidir. Xüsusən də İkinci Qarabağ müharibəsində qazandığı böyük qələbə ilə Azərbaycan regionda yeni geosiyasi reallıqlar yaratdı. Bu gün ölkəmiz dünyanın nəqliyyat sektorunun inkişafına mühüm töhfələr verir. O da məlumdur ki, Azərbaycan bu sahədə bir çox ideya və layihələrin təşəbbüskarı kimi çıxış edir. Ekspertlərə görə, Azərbaycanın yaratdığı müasir nəqliyyat infrastrukturu beynəlxalq və regional müstəvidə yüksək dəyərə malikdir.**



Ölkəmizin bu sahədə rolunun böyük olduğunu deyən ekspertlərin fikrincə, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycanın ərazisindən keçməsi qətiyyən təsadüfi deyil, bu, Azərbaycanın siyasi-iqtisadi gücünün, iradəsinin göstəricisidir. Eyni zamanda, bu nəqliyyat dəhlizlərinin bizim ərazimizdən keçməsi iqtisadiyyatımıza böyük töhfədir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun formalaşdırılması istiqamətində olduqca mühüm layihələr reallaşdırılıb, bütün yol infrastrukturu yenilənib, o cümlədən kəndləri, qəsəbələri, şəhərləri birləşdirən yollar salınıb. İşğaldan azad olunmuş ərazilərdə də bu gün müasir yol infrastrukturu qurulur.

Ekspertlərə görə, uzun illər öncədən Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qəbul edilən davamlı və sistemli qərarlar nəticəsində ölkə istənilən növ daşınmanı həyata keçirməyə, qəbul etməyə, saxlamağa və yola salmağa malikdir.

Prezident İlham Əliyev çıxışlarından birində qeyd edib: "Azərbaycanda yaradılmış müasir nəqliyyat infrastrukturu həm ölkə daxilində, həm də regional çərçivədə əhəmiyyətlidir. Son illər ərzində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində atılmış addımlar artıq öz səmərəsini verir. Biz müasir nəqliyyat və logistika infrastrukturu yaratmışıq. Əlbəttə ki, bunun biznes dairələri üçün çox böyük əhəmiyyəti, çox böyük faydası var. Çünki nəqliyyat infrastrukturu olmadan biznesin inkişafından söhbət gedə bilməz".

Regional yol infrastrukturlarının inkişafında müstəsna əhəmiyyətli rol oynayan maliyyə mənbəyinə gəlincə, Azərbaycanda regional yol infrastrukturlarının maliyyələşdirilməsi əsasən dövlət tərəfindən həyata keçirilir.

Regional və kənd yollarının tikintisi, bərpası və təmiri üçün ayrılan vəsaitlərin böyük hissəsi illik dövlət büdcəsinin investisiya xərcləri çərçivəsindən maliyyələşir. Məlumatlara görə, bu, ən stabil və həlledici maliyyə mənbəyidir. Eyni zamanda burada dövlət investisiya proqramlarının rolu xüsusi vurğulanmalıdır.

"Regionların sosial-iqtisadi inkişafı proqramları", "Yol İstismarı və Tikintisi layihələri" kimi proqramlar çərçivəsində regionlarda yolların yenidən qurulması üçün əlavə maliyyə ayrılır.

İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı ekspert Əyyub Kərimli "Bakı-Xəbər"ə bildirdi ki, regional və respublika əhəmiyyətli yolların maliyyələşməsi dövlət büdcəsi hesabına həyata keçirilir. O qeyd etdi ki, bəzi kənd və məhəllə yolları bələdiyyələr tərəfindən də maliyyələşə bilər. Ekspertin sözlərinə görə, ödənişli yollar isə dövlət və özəl sektorun tərəfdaşlığı çərçivəsində reallaşdırılır. "Hazırda Bakı-Rostov yolu ödənişli formada fəaliyyət göstərir. Əlbəttə ki, biz beynəlxalq təcrübəyə müraciət etsək, fikrimcə, yol infrastrukturunun qurulmasında özəl sektorun və bələdiyyələrin iştirakının artırılması daha müsbət nəticələr vermiş olar. Yol infrastrukturunun qurulması iqtisadiyyat üçün çox əhəmiyyətli rola malikdir. Keçmişdə bir deyim vardı: "Yol mədəniyyətdir". Amma mən bu gün o fikrə əlavə edərdim ki, yol iqtisadi inkişafdır. Bu gün yol varsa, deməк sahibkarlıq fəaliyyəti var, gediş-gəliş var, dinamika var, aktiv fəaliyyət var, turizimin inkişafı var. Son illər ölkəmizdə xeyli sayda yollar çəkilib, yollar genişləndirilib. Bu da regionların sosial-iqtisadi inkişafına, turizimin və sairin inkişafına əsaslı təsir göstərir. Baxın, 15-20 il bundan əvvəl Bakı-Şamaxı, yaxud Bakı-Qəbələ, Bakı-Qazax yolu hansı vəziyyətdə idi, bu gün necədir? Bu yollar yenidən qurulub, genişləndirilib, yükdaşımaların, sürətin artmasına müsbət təsir göstərir. O baxımdan vurğulamaq istəyirəm ki, ölkəmiz nəqliyyat-logistika infrastrukturunun inkişafına əhəmiyyətli invesiya qoyur. Ölkəmizin unikal coğrafi mövqeyi var və bir neçə yol xəttlərinin kəsişməsində yerləşirik. Söhbət həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətindən gedir. Sözsüz ki, bizim nəqliyyat və logistika üçün əhəmiyyətli yollarımız mövccud olmalıdır, keyfiyyət daha da yaxşılaşdırılmalıdır, yollar genişləndirilməlidir. Bu baxımdan, bir iqtisadçı kimi yolların əhəmiyyətini vurğulamaq istəyirəm.

Ölkəmizin müxtəlif yerlərində, o cümlədən də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturunun formalaşmasına əhəmiyyətli investisiya yatırılıb ki, o da gələcəkdə həmin bölgələrin iqtisadi inkişafını təmin edəcək. Bu gün yol yeni investorların cəlb olunmasında əhəmiyyətli rol oynayır. Eyni zamanda sahibkarlıq subyektlərinin inkişafına da müsbət təsir göstərir. Bu baxımdan, yolların şaxələndirilməsi, uzunluğunun daha çox olması, infrastrukturun böyüməsi ölkə iqtisadiyyatının inkişafına bilavasitə əhəmiyyətli təsir edən amillərdən biridir"-deyə Ə.Kərimli bildirdi.

*İradə SARIYEVA*

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***